**УОТ 94 (479.24)**

# ŞƏKİ VƏ ŞAMAXI XANLIQLARININ ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI QAFQAZ ARXEOQRAFİYA KOMİSSİYASININ SƏNƏDLƏRİNDƏ

**C.Ş.QULİYEV**
***Lənkəran Dövlət Universiteti***
***@anasirova@mail.ru***

*Məqalə XIX əsrin əvvəllərində çar Rusiyasının Cənubi Qafqazı, xüsusilə də Şimali Azərbaycan xanlıqları-Şəki və Şamaxının işğal edilməsinə həsr olunmuşdur. Aparılan araşdırmalar nəticəsində müəllif belə qənaətə gəlir ki, kiçik müharibələr istisna olmaqla, Qarabağ xanlığı kimi Şəki və Şirvan xanlığı da müqavilə ilə çar Rusiyası tərəfindən tabe edilmişdir. Bütün bunlar məqalədə ilkin mənbə xarakteri daşıyan Qafqaz Arxeoqrafiya Komissiyasının sənədləri əsasında obyektiv şəkildə işıqlandırılmışdır.*

**Ачар сюзляр:** Шяки, Шамахы, Гафгаз, сянядляр, археографийа комиссийасы

Qarabağ xanlığı işğal edildikdən sonra çar Rusiyasının Qafqaz qoşunlarının ali baş komandanı Sisianov digər Şimali Azərbaycan xanlıqlarına hədələrlə dolu məktublar göndərməkdə davam edirdi. Qafqaz Arxeoqrafiya Komissiyasının "akt"larından məlum olur ki, Gəncə faciəsindən 6 gün sonra Sisianov Şəki hakimi Məhəmmədhəsən xana təhqirlə dolu bir məktub ünvanlamışdı. Şəki xanını milçək, öz dövlətini isə qartal adlandıran Sisianov bu məktubunda yazırdı: "Əmin ol, mənim yalnız bir buyruğum yetər və onda Nuxa xanlığı da Gəncə xanlığı kimi yox olacaq..." [2, sənəd 1277, 636]. Bununla bir növ Sisianov xanın yerinə göz dikmiş olan Səlim xanın da başına "ağıl qoyurdu". Qeyd etmək lazımdır ki, Şəki xanlığındakı hadisələr də Rusiyanın xeyrinə cərəyan edirdi. Siyasi hakimiyyətə can atan və buna Rusiya tərəfindən şirnikləndirilən Səlim xan qardaşı Məhəmmədhəsən xanı devirmək üçün knyaz Sisianova və Şirvan xanı Mustafa xana müraciət etdi [6, 407]. Ancaq baş komandan bu məktuba cavab verməmiş, onun yerinə polkovnik Karyagin xana belə bir "öyüd-nəsihət" vermişdi: "Sisianova çoxmu gərəkdir siz Nuxada xan olasız? Axı, gerçəyi budur ki, mərmi və güllə havası altında o, hər hansı bir xanı oynamağa məcbur edə bilər; siz əgər Nuxa xanlığına bərpa

olunmaq istəyirsinizsə, fars bicliyi ilə möhürsüz axmaq məktublar yazmalı deyil, Sisianovun çağırışı ilə Tiflisə yanına gəlib rica etməlisiniz...” [2, sənəd 1279, 637]. Tarixi ədəbiyyatda göstərilir ki, Şəki xanlığı ilə münasibətləri kəskinləşdirən digər bir amil Cavad xanla Məhəmmədhəsən xanın qohumluq münasibətləri idi. Bacısının taleyindən narahat olan Məhəmmədhəsən xan İrana meyl etməyə başlamışdı. İrana arxalanmağa can atan Şəki xanı müttəfiqi Mustafa xandan üz çevirdi. Bu hərəkəti Mustafa xanı Səlim xan ilə yaxınlaşmağa sövq etdi. Əvvəllər İrana meyl göstərən səlim xan isə, əksinə, daha güclü arxa olan Rusiyaya üz tutdu və Sisianova müraciət etdi [7, 48]. Mirzə Adıgözəl bəy yazır: “Səlim xan İbrahim xan tərəfindən Şəki vilayətinə xan təyin edilmişdi. Onun köməyi ilə mərkəzi hökumətə arxalanırdı...” [9, 82]. Əslində isə qeyd etmək lazımdır ki, Şəki xanlığı Qarabağ xanlığı ilə bir gündə, Kürəkçay görüşlərində tabe edildi. Mirzə Adıgözəl bəy də, M.Camal Cavanşir də bunun belə olduğunu yazırlar: “Kürəkçayın qırağında bir neçə gün bayram, şənlik və qonaqlıq oldu. Sonra traktat və əhdnamə yazıldı. İbrahim xan və Şəki hakimi Səlim xan ona möhür basdılar, böyük sərdar (Sisianov) isə qol çəkdi...” [9, 82; 2, sənəd 1436, 705]. Bu müqaviləyə görə Səlim xan hər il dövlət xəzinəsinə 7000 çervon xərac verməli, öz xanlığında 500 nəfərlik rus qoşun dəstəsini yerləşdirməli, onları və atları ərzaqla təmin etmək üçün hər il 529 xalvar un, 80,5 xalvar buğda verməli, qışda onları odunla təmin etməli idi. Bundan başqa xan 4 yaşlı oğlunun əvəzinə 5 bəyin uşağını əmanət verməli, iki ildən sonra isə öz oğlunu Tiflisdə daimi yaşamaq üçün əmanət göndərməli idi [7, 50]. Beləliklə sənədlərdən də məlum olur ki, müharibənin ilk günlərindən qalibiyyətlə irəliləyən rus qoşunları Kürəkçay görüşləri ilə Qarabağ və Şəki xanlığını Şimali Azərbaycanda növbəti qurbanına çevirmişdir.

Tarixi ədəbiyyatın araşdırılması göstərir ki, 1805-ci ilin yazında İran rejimi rusların irəliləyişini saxlamaq və onları Şimali Azərbaycan torpaqlarından çıxarmaq üçün ciddi-cəhdlə çalışırdı. S.Əliyarlının redaktorluğu ilə işıq üzü görmüş “Azərbaycan tarixi”ndə deyilir: “İyun ayının birinci yarısında Abbas Mirzə 10 min əsgər ilə Qarabağ üzərinə hərəkətə başladı. Qızılbaş ordusu iki qola ayrıldı. Biri Şuşanın 4 ağaclığında Ağoğlanı tutdu, o biri yarısı Əsgəran və Şahbulaq qalalarını tutdu... Fətəli şah da qalan İran ordusu ilə Ağoğlana gəlmişdi. Ancaq Xəzər dənizi ilə Talış və Rəşt vilayətlərinə rus qoşunlarının çıxarılması barədə xəbər alan kimi geriyə dönüb Ərdəbilə getdi... İran ordusunun Tiflis yürüşü Zəyəm və Qazax döyüşləri ilə pozuldu...” [1, 592]. Məlumatlardan da göründüyü kimi, İran tərəfi Şimali Azərbaycan xanlıqlarının rus qoşunları tərəfindən işğalı ilə razılaşa bilmir, özgə ərazilərin işğal olunması uğrunda aparılan müharibələrin bütün ağırlığı isə yerli əhalinin-azərbaycanlıların üzərinə düşürdü. Qafqaz Arxeoqrafiya Komissiyasının “akt”larında deyilir: “Biz bütün qoşunları toplayaraq, öz piyada və atlı döyüşçülərimizlə onların üzərinə getdik, ... onları əzərək üzərlərində zəfər qazandıq, ... bir çoxunu öldürdük, falkonet, silah və barıtlarını, güllə, yeyim ehtiyatını və

başqa şeyləri, çoxlu at, qatır və dəvələrini əllərindən aldıq" [2, sənəd 1147, 569-570].

Məlumatlar təsdiqləyir ki, Kürəkçay traktatından sonra Şimali Azərbaycanın hər bir bölgəsində Rusiya imperiyasına və onun işğalçı ordusuna qarşı yerli əhalinin kin və nifrəti daha da artmışdı. Fikrimizcə, bu, təbii qarşılanmalıdır. Bütün deyilənləri isə Sisianovun İbrahim xana məktubu bir daha sübut edir. Məktubda isə yerli türk-müsəlman əhalisinin çox böyük əksəriyyətinin Qacar qoşunlarını səbirsizliklə gözlədiyindən xəbərdar olan Sisianovun İbrahim xana sədaqətinə inanmadığı bildirlir və xanın hər iki tərəfə sığınmaqda günahlandırılması göstərilirdi [2, sənəd 1447, 709]. Beləliklə, 1805-ci ilin II yarısında Şimali Azərbaycanda narazılıq dalğasının qalxmasının şahidi oluruq. Bir çox xan və sultanların ruslara qarşı vahid cəbhədə birləşməsi faktı Sisianovun aşağıdakı məlumatından aydın görünür: "...Şeyxəli xan, Tarkovlu Şamxal, Avar xanı və atası, Canqutay sultanı, Şirvan xanı Mustafa xanla birləşərək öz nümayəndələrini Baba xanın yanına göndərmiş və Rusiyaya qarşı onunla əlbir olacaqlarını söyləmişlər" [11, 64].

Qafqaz Arxeoqrafiya Komissiyasının "akt"larından məlum olur ki, Şəmsəddil sultanlığında Rusiya əleyhinə baş verən üsyan daha təhlükəli xarakter daşıyırdı. Insan qanı tökməkdən həzz alan Sisianov şəmsədillilərə hədəqorxu gələrək onlara müraciətində yazırdı: "...Kim rusları istəmirsə, Arazın o tərəfinə, iranlıların yanına köçsün, Arazın bu üzündə onlara yer yoxdur və mən onları burada yaşamağa qoymayacağam. Abbas Mirzənin məğlubiyyəti, Rusiyaya qarşı çıxışların yatırılmasından sonra, Sisianov erməni arxiyepiskopu Yohana məktubunda bildirirdi ki, "burada çoxlu boş evlər var...Sizdən xahiş edirəm İrəvan ermənilərini təcili buraya köçürəsiniz. Mən əmr edəcəyəm hər ailəyə hazır ev, bağ və tarla verilsin...Üç il onlardan töycü güzəştlə alınacaq və heç bir mükəlləfiyyət daşımayacaqlar" [2, sənəd 1225, 626]. Beləliklə, artıq bu dövrdən ermənilərin kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürülməsi üçün müəyyən mənada zəmin hazırlandığını görmək olar.

Sisianov müstəmləkəçilərə qarşı baş verən narazılıqları müxtəlif vasitələrlə yatırdıqdan sonra "Şirvan xanlığının məsələsini həll etməyi", yəni bu Azərbaycan torpağını da işğal etməyi qərara aldı. Bu barədə "Qarabağnamə" müəllifi Mirzə Camal Cavanşir yazır ki, ...Böyük Rusiya dövlətinə səmimiyyət bəsləyən İbrahim xan öz istəkli oğlu Mehdiqulu ağanı Qarabağ qoşunu və bir neçə bəzadə ilə birlikdə padşah əsgərləri sırasında tapşırılan vəzifələri yerinə yetirmək üçün sərdarın hüzuruna göndərdi...Öz dövlətinə, gücünə və ölkənin çətin yollarına qürrələnən Mustafa xan bir neçə gün qürurla cavablar yazaraq itaətdən boyun qaçırdı. Lakin o, Mehdiqulu xanla Səlim xanın göstərişi ilə itaət edəcəyinə yalandan söz verdi, müqavilə və əhdnamə yazıb, üzdə Rusiya dövlətinin itaəti altına girdi [10, 155]. Məlumatlar da təsdiq edir ki, Sisianov bu yürüşü çox əhəmiyyətli sayırdı. Cənubi Qafqazda möhkəmlənmək üçün Şamaxı-Bakı-Dərbənd yollarını ələ keçirmək, bununla da Rusiyaya çıxış açmaq onun başlıca istəyi idi. Çar məmurlarından general Lazarevin general

Knorrinqə 1801-ci ilin aprelində yazdığı raportundan məlum olur ki, qarabağlı İbrahimxəlil xan ilə şamaxılı Mustafa xan ittifaq bağlayanda Məhəmmədhəsən xan, Şeyxəli xan və Qazıqumuk hakimi Xanbutay xan qüvvələrini birləşdirib Mustafa xanın üzərinə hücum edirlər. Ibrahimxəlil xan isə 2000 nəfərlik dəstəni oğlunun rəhbərliyi ilə Mustafa xanın köməyinə göndərir [4, 116]. Qeyd etmək lazımdır ki, Şeyxəli xan həm də Fətəli şahın Bakı xanlığı ilə münasibətlərində şahı dəstəkləyir ki, Salyanı Mustafa xandan almaqda ona hərbi qüvvə ilə kömək etsin. Tarixi ədəbiyyatdan məlum olur ki, 1804-cü ildə Mustafa xan Səlim xanın qızı Asiya bəyim ilə evlənmişdi. Rusiya hakim dairələri Şəki və Şamaxı xanları arasında olan bu qohumluq münasibətlərindən istifadə edərək şəkili Səlim xanın vasitəsilə şamaxılı Mustafa xana təsir göstərməyə çalışırdı [4, 116]. Göründüyü kimi, çar məmurları həm də xanlıqlararası münasibətləri çox diqqətlə izləyir, lazımi məqamda bu münasibətlərdə gərginlik yaradırdılar.

"Akt"larda dərc edilmiş məlumatlardan göstərir ki, əldə edilmiş razılığa görə, Səlim xan P.D.Sisianovun göstərişi ilə Mustafa xanı inandırmalı və əmin etməli idi ki, Rusiyanın "himayəsində" olarkən heç kim heç nəyi ondan ala bilməz [2, sənəd 1288, 642]. N.F.Dubrovinin yazdıqlarına görə, şəkili Səlim xanın öz məqsədi var idi. O həm böyük qardaşı Məhəmmədhəsən xanı, həm də Mustafa xanı hakimiyyətdən devirməyi Sisianovdan xahiş etmişdir [6, 407]. P.D.Sisianova isə belə bir müraciətin edilməsi xanlar arasında, xüsusilə Mustafa xan ilə Səlim xan arasında qarşıdurma yaratmaq üçün bir fürsət idi.

Məlumatlar göstərir ki, Fitdağ qalasında özünə sığınacaq tapan Şamaxı xanı Mustafa xan Rusiyaya tabe olmaq niyyətində deyildi. General Sisianov isə qalanı fəth etməyin çətin olduğunu və uzun müddət mühasirədə saxlamağın qeyri-mümkünlüyünü görüb, Mustafa xanı itaətə gətirmək üçün onunla siyasi danışıqlara başlamağı üstün tutur və bunun üçün müxtəlif yollar axtarırdı[8, 108]. P.D.Sisianov Səlim xana əminliklə bildirirdi ki, Mustafa xanın ərazilərini Rusiya silahının gücü ilə ələ keçirdikdən sonra Şamaxı xanlığının sahibi olacaq [2, sənəd 1306, 649]. Göründüyü kimi, Səlim xan ilə Mustafa xanın qohumluq əlaqəsi P.D.Sisianovu narahat edirdi. Buna görə də, Səlim xana Şamaxı xanlığında hakimlik vəd edərək, bu iki xanı bir-birinə qarşı qoymağa cəhd göstərməklə onları Rusiyaya qarşı zərərsizləşdirməyə çalışırdı. Mənbələr göstərir ki, Sisianovun qızışdırıcı siyasəti ilə, nəhayət ki, bu iki xan arasında münasibətlər gərginləşir. Belə ki, Səlim xan qızı Asiya bəyimi Mustafa xandan geri alır [2, sənəd 1323, 656].

1805-ci ildə Qarabağ və Şəki xanlığının işğal edilməsinə qədər Şamaxı xanlığının Rusiyaya tabe edilməsi haqqında danışıqlar gedirdi. Hələ 1801-ci ildə general Knorrinq Mustafa xandan tələb edir ki, Ağa Məhəmməd xan Tiflisin işğalı zamanı ələ keçirdiyi 2 rus topunu geri qaytarsın. Daha sonra P.D.Sisianov Mustafa xana hədələyici məktublarını göndərməkdə davam edərək 1804-cü ilin yanvarında yazırdı ki, Salyanda tacirlərin mallarının yüklənməsinə bir şərtlə razı olar ki, o, Rusiyanın tabeliyinə keçməyə razı olsun

[2, sənəd 1341, 661]. Rədd edilən tələblərin bir nəticə vermədiyini görən P.D.Sisianov "hiylə yolu" ilə Mustafa xanı dilə tutmağa başlayır. Mustafa xan isə özünün hazırlıq tədbirlərini görürdü. Həmin vaxt İran şahı Mustafa xana "yardımından" əl çəkmirdi. Tarixi ədəbiyyatdan məlum olur ki, Mustafa xanı Rusiya təcavüzündən xilas etmək, Bakını qorumaq üçün Abbas Mirzə tərəfindən Hüseynqulu xan Qacar, onun ardınca isə Təbrizin bəylərbəyi Əhməd xan Müqəddəm tərəfindən bəzi dəstələr və artilleriya göndərilir [4, 118].

Mustafa xan Rusiyaya münasibətində P.D.Sisianova yazırdı ki, keçmişdə onun babaları olan Şirvan xanları bütün Azərbaycana hakim idilər, deməli, rus komandanı Şəki xanlığını və digər yerləri də Şamaxı xanlığına qaytarmalıdır. P.D.Sisianov isə Mustafa xandan vaxtilə Qarabağdan Şamaxıya köçmüş əhalinin geri qaytarılmasını təkidlə tələb edir [2, sənəd 1353, 668].

Sisianov Mustafa xana yazdığı növbəti məktubunda bildirirdi ki, "Siz İran şahından hədiyyə qəbul edirsiniz, mənimlə isə müqavilə imzalayırsınız". Mustafa xan isə cavabında bildirirdi ki, birincisi, həmin hədiyyələr geri qaytarılmışdır, ikincisi isə həmin hədiyyələr mənə göndərilən zaman Şamaxı xanlığı Rusiya ilə heç bir müqavilə imzalamamışdı [2, sənəd 1355, 670].

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərindən məlum olur ki, Sisianov daha sonra 1805-ci il avqustun 15-də aşağıdakı məzmunda növbəti tələbləri göndərir:

1. Siz İrandan və ya hər hansı başqa bir dövlətdən asılı olmadığınızı etiraf etməli və Ali hakimiyyəti (çar Rusiyasını-C.Q) tanımalısınız;
2. Qarabağdan olan bütün ailələri geri qaytarmalısınız;
3. Cavad ərazisini Qarabağ xanına qaytarmalısınız;
4. Ümumrusiya imperiyasına sadiq olmağınıza zəmanət kimi öz qardaşınız İsmayıl bəyi və uşaqlarını verməlisiniz;
5. Hər il xəzinəyə 8 min çervon pul ödəməlisiniz;
6. Həştərxandan Bakıya və oradan Gürcüstana gedən karvanların təhlükəsiz keçməsini təmin etmək üçün sadiq məmurlar təyin etməlisiniz [2, sənəd 1348, 664].

Mustafa xan P.D.Sisianova yazdığı cavab məktubunda bildirirdi ki, o sakinlər ki, Qarabağdan köçüblər, geri qayıtmaq istəmirlər. Bir halda ki, Şamaxı da, Qarabağ da imperiyaya məxsusdur, mən əminəm ki, siz nə məni, nə də o sakinləri bir daha narahat edəcəksiniz. Cavad ərazisinə gəldikdə isə ora heç bir vaxt Qarabağ ərazisinə aid deyildi. Cavad keçidi Şirvanla Muğan arasındadır. Əgər kimsə, qarabağlı və ya başqa birisi mənə sübut etsə ki, Cavad nə vaxtsa Qarabağa aid olub, onda ixtiyar sizindir. Daha sonra, əgər xanlıq mənim hakimiyyətimdən çıxmışdırsa, hansı gəlirlə mən 8.000 çevron verə bilərəm[2, sənəd 1349, 665]. Beləliklə, məlumatlardakı "siyasət xətti" Mustafa xanın itatə gəlməsi üçün işlədilsə də, onu Kür sahilinə gətirmək mümkün olmadı. Məhz bu hal P.D.Sisianovu çox narahat edirdi. Tələblərin zahirən qəbul edilməsini bəhanə edən Sisianov 1805-ci ilin noyabrın 31-də Şamaxı xanlığına yürüş edir.Yürüşə çıxmazdan əvvəl 29 oktyabrda general-

mayor P.D.Nesvetayevə yeni qoşun verməkdən boyun qaçıraraq yazırdı: "...Mən qoşunları Şirvan xanını və Bakını qorxu altında saxlamaq üçün burada saxlamışam...Əgər Bakı alınsa və Şirvan əyaləti traktat ilə Rusiya təbəəliyinə keçsə, mən elə bu qış bircə Sevastopol alayı və 200 yegerlə...İrəvan üzərinə gedəcəyəm; indi isə görünür Bakı üzərinə getmək gərək olacaq" [1, 593]. Yuxarıdakı məlumatlar bir daha sübut edir ki, Şirvan və Bakı xanlıqlarını ələ keçirməklə ruslar əlverişli quru yollarına sahib olmaq istəyir, Şirvan hakimi Mustafa xan isə itaət etməkən boyun qaçırırdı [2, sənəd 1359, 1360, 1362, 1364, 671-673]. Rus qoşunlarını göylərə qaldırmaqdan həzz alan "Qarabağnamə" müəllifi Mirzə Adıgözəl bəy isə bununla bağlı yazır: "Şirvanlı Mustafa xanın ölkəsi, zəfər nişanəli rus qoşunlarının yolu üstündə idi. Buna baxmayaraq o, bu böyük dövlətin itaətini qəbul etməkdən boyun qaçırdı. Düşmənçilikdən dəm vurub ədavət yolunda sabitqədəm durdu. Cənab sərdar onu cəzalandırmağı və qəflət yuxusundan oyatmağı lazım bildi" [9, 83]. Onu da qeyd etmək lazımdır ki, Şamaxı xanlığının Rusiyaya tabe edilməsini təxirə salan bu inadkar xana qarşı yürüşdə rus qoşunları ilə yanaşı 1000 nəfərdən ibarət Qarabağ atlıları da iştirak edirdi. Rus hərbi hissələri həmin il dekabrın 11-də Ağsu şəhərinin 5 kilometrliyinə çatdılar. Bu vaxt Şamaxı xanı Fitdağ qalasında idi. Onun buraya sığınması birinci dəfə deyildi. Xanlar arasında gedən müharibələr, Ağa Məhəmməd xanın apardığı dağıdıcı müharibələr və P.D.Sisianov ilə aparılan danışıqların nəticə verməməsi üzündən Mustafa xan Fit dağına çəkilərək orada möhkəmlənməyə çalışırdı. General P.D.Sisianov Mustafa xanı Kürəkçay sahilinə öz hərbi qərargahına dəvət etdiyi zaman Mustafa xan Fitdağ qalasından uzaqlaşmaq istəmədiyini bildirmişdir [5, 59].

Araşdırmalar göstərir ki, kiçik müharibələr istisna olmaqla, Şirvan hakimi Mustafa xan da Qarabağ və Şəki xanlığı kimi müqavilə ilə [2, sənəd 1366, 674] 1805-ci ilin dekabrın 27-də çar Rusiyası tərəfindən tabe edildi. Tarixi ədəbiyyatdan məlum olur ki, Şirvan xanlığının ələ keçirilməsi nəticəsində ruslar Bakı və Talış xanlığını işğal etmək üçün quru yolu əldə etdilər. Qafqaz Arxeoqrafiya Komissiyasının "akt"larından məlum olur ki, Şirvan xanlığını işğal edən Sisianov imperator I Aleksandra vaxt itirmədən Bakıya doğru hərəkət edəcəyini bildirirdi [2, sənəd 1365, 674]. Beləliklə də, Kürəkçay andlaşmasının bəndləri burada da təkrar edilirdi. Şirvan xanlığı başqa dövlətlərlə əlaqə saxlamaq hüququndan imtina edir, öz xəzinə gəlirindən 8 min çevron Rusiyaya bac verməyi, rus ordusunun ərzağını ödəməyi və Şirvandan keçən yollarda əmin-amanlıq yaratmağı öhdəsinə alırdı [2, sənəd 1366, 674-677]. Göründüyü kimi, daha bir Azərbaycan xanlığı da çar Rusiyasının qurbanına çevrildi. Rusiya ilə müqavilə bağlanmasına baxmayaraq, Mustafa xan tabe olmaq istəmir, Fitdağ qalasına sığınaraq buranı xanlığın daimi mərkəzinə çevirmək niyyətindən əl çəkmir, yaranmış vəziyyətdən daim çıxış yolu axtarırdı. Deyilənləri dövrün sənədləri də təsdiqləyir. Belə ki, Mustafa xan beynəlxalq münasibətləri çox diqqətlə izləyir və qüvvələr nisbətinin beynəlxalq aləmdə nə vaxt Rusiya əleyhinə dəyişəcəyi anı gözləyirdi [3, sənəd 559, 305].

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. S.Əliyarlının redaktorluğu ilə. Bakı: Azərnəşr, 1996, 872 s.
2. Акты, собранные Кавказской Археографической комиссией ( bundan sonra АКАК). Т. II, под ред. А.Берже. Тифлис, 1868
3. АКАК, III т., Тифлис, 1869
4. Bayramova N. Şamaxı xanlığı.Bakı: Təhsil, 2009, 396 s
5. Cəfərov Ə.R. Azərbaycanın Şirvan xanlığının Rusiya ilə birləşməsi və Şamaxı şəhərinin bərpası. Namizədlik dissertasiyası. Bakı, 1954
6. Дубровин Н.Ф. Закавказье от 1803-1806 года. СПб., 1866
7. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı: Az.Döv. Nəşr., 1997,76 s
8. İsmayılov Rəşid bəy. Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 163 s
9. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab. Bakı: Şərq-Qərb, 2006, 190 s.
10. Mirzə Camal Cavanşir. Qarabağ tarixi // Qarabağnamələr. Birinci kitab. Bakı: Şərq-Qərb, 2006, 215 s.
11. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: Elm, 2004, 183 s.


## ЗАВОЕВАНИЕ ЦАРСКОЙ РОССИЕЙ ШЕКИНСКОГО И ШАМАХИНСКОГО ХАНСТВ В ДОКУМЕНТАХ КАВКАЗСКОЙ АРХЕОГРАФИЧЕСКОЙ КОМИССИИ


**Д.Ш.ГУЛИЕВ**


### РЕЗЮМЕ


Статья посвящена завоеваниям царской России на Южном Кавказе в особенности в Северном Азербайджане, Шекинского и Шамахинского ханств. В ходе исследования автор приходит к выводу, что за исключением небольших военных действий, Шамахинское и Шекинское ханств как и Карабахское ханство с помощью соглашения были подчинены России.

Все эти вопросы в статье были объективно исследованы на основе первоисточников, таких как Акты Кавказской Археографической Комиссии.



**Ключевые слова:** Шеки, Шамахы, Кавказ, документы, археографическая комиссия


## OCCUPATION OF SHAKI AND SHAMAKHI KHANATES BY TSARIST RUSSIA IN THE DOCUMENTS OF ARCHEOLOGICAL COMMISSION OF CAUCASUS


**J.Sh.GULIYEV**


### SUMMARY


The article is devoted to the occupation of South Caucasus, especially the North Azerbaijan khanates, Shaki and Shamakhi by tszar Russia in the beginning of the XIX century. The author comes to the conclusion that the khanates of Shaki and Shamakhi like Kharabagh khanate were under Russia’s command. All these are analyzed on the basis of the document of Archeological Commission of Caucasus which are the first sources in the objective form.



**Key words:** Shaki, Shamakhi, Caucasus, documents, Archeological Commission